Azərbaycan Respublikasının Nazirlər Kabineti

**№ 90** **QƏRAR** **Bakı şəhəri, 25 fevral 2016-cı il**

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2000-ci il 11 sentyabr tarixli 167 nömrəli qərarı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında notariat hərəkətlərinin aparılması qaydaları haqqında Təlimat"da dəyişikliklər edilməsi barədə

"Azərbaycan Respublikasının Mülki Məcəlləsində dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikasının 2015-ci il 15 may tarixli 1285-IVQD nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2015-ci il 14 iyul tarixli 567 nömrəli Fərmanının 1.2-ci bəndinin icrasını təmin etmək məqsədi ilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2000-ci il 11 sentyabr tarixli 167 nömrəli qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 9, maddə 693; 2001, № 11, maddə 722; 2002, № 3, maddə 148, № 7, maddə 455, № 10, maddə 635; 2003, № 10, maddə 629; 2005, № 4, maddə 386, № 6, maddə 534, № 8, maddə 782, № 10, maddə 977, № 11, maddə 1061, № 12, maddələr 1228,1231; 2006, № 3, maddə 297, № 8, maddə 731, № 9, maddə 830, № 10, maddə 902, № 11, maddə 994; 2008, № 2, maddə 108, № 4, maddə 316, № 8, maddə 787; 2009, № 2, maddə 148, № 10, maddələr 846, 849, № 12, maddə 1079; 2010, № 6, maddə 555; 2011, № 10, maddə 971; 2012, № 3, maddə 263, № 5, maddələr 489, 495, № 7, maddə 777, № 11, maddə 1206, № 12, maddə 1354; 2013, № 4, maddə 444, № 5, maddə 578; 2014, № 1, maddə 74, № 5, maddələr 552, 589, № 6, maddə 746, № 8, maddə 1019, № 12, maddə 1685; Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2015-ci il 17 dekabr tarixli 383 nömrəli qərarı) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında notariat hərəkətlərinin aparılması qaydaları haqqında Təlimat"da aşağıdakı dəyişikliklər edilsin:

1. 2-ci hissənin 14-cü bəndinə "məbləğlərini," sözündən sonra "sənədli" sözü əlavə edilsin.
2. 89-cu hissənin ikinci abzasında "emissiya və qeyri-emissiya" sözləri "sənədli" sözü ilə əvəz edilsin və həmin abzasdan "(orderlər, veksellər, çeklər, istiqrazlar, səhmlər, əmtəə kağızları və sair)" sözləri çıxarılsın.
3. 11-ci fəslin adına "məbləğlərinin," sözündən sonra "sənədli" sözü əlavə edilsin.
4. 152-ci hissənin birinci və ikinci abzaslarına "məbləğlərini və" sözlərindən sonra "sənədli" sözü əlavə edilsin.
5. 153-cü hissənin birinci abzasına "məbləğlərini və" sözlərindən və "məbləğləri və ya" sözlərindən sonra, ikinci abzasına isə "pul məbləğlərini," sözlərindən sonra "sənədli" sözü əlavə edilsin.
6. 154-cü hissənin birinci abzasına "məbləğləri və ya" sözlərindən sonra "sənədli" sözü əlavə edilsin.
7. 155-ci hissənin birinci abzasına "məbləğlərinin və" sözlərindən və "məbləğini və ya" sözlərindən, ikinci abzasına isə "pulun və ya" sözlərindən sonra "sənədli" sözü əlavə edilsin.
8. 157-ci hissəyə "məbləğlərinin və" sözlərindən sonra "sənədli" sözü əlavə edilsin.
9. 158-ci hissənin dördüncü abzasına "məbləğləri və ya" sözlərindən sonra "sənədli" sözü əlavə edilsin.

***Artur RASİ-ZADƏ,***
***Azərbaycan Respublikasının Baş naziri***